

# Prezident İlham ƏLİYEV:
# Bizim sözlərimiz, bəyanatlarımız və imzamız eyni dəyərə malikdir

***Ermənistan ordusunun ötən il sentyabrın 27-də təxribat törədərək, ölkəmizə hücuma keçməsi, müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutması Azərbaycan Silahlı Qüvvələrini əks-hücum əməliyyatlarına başlamağa məcbur etdi. Bu savaşda ordumuzun qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olacağını anlayan düşmən məğlubiyyətini etiraf etmək məcburiyyətində qaldı, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən üçtərəfli bəyanat imzalandı. Bununla da 30 ildən artıq davam edən münaqişəyə, torpaqlarımızın işğalına son qoyuldu, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatı şərtləndirildi.***

Beləliklə, Ermənistanın işğalçı qoşunlarının ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının kağız üzərində qalan dörd qətnaməsini Azərbaycan özü reallaşdırdı, ərazi bütövlüyünü bərpa etdi və ədalətsizliyə son qoydu.

Onu da deyək ki, hələ münaqişə dövründə təkcə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası yox, həmçinin ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq təşkilatlar və bir çox digər qurumlar Azərbaycanın ədalətli mövqeyinə dəstək oldu və bu, məsələnin həlli üçün çox möhkəm beynəlxalq təməl yaratdı. Azərbaycan isə beynəlxalq hüquq çərçivəsində hərəkət edərək, bütün ölkələrə özünümüdafiə hüququ verən BMT-nin nizamnaməsi əsasında əks-həmlə əməliyyatı apararaq, 44 günlük Vətən müharibəsində işğala son qoydu.

Azərbaycanın Vətən müharibəsindəki parlaq qələbəsi ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyətinin, müdrik siyasətinin və Azərbaycan Ordusunun gücqüdrəti və döyüş ruhunun məntiqi nəticəsi idi.

Dövlətimizin başçısının prezidentlik fəaliyyətinə başladığı ilk gündən diqqət yetirdiyi prioritet istiqamətlərdən biri də hərbi quruculuq məsələsi idi. Xatırladaq ki, 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev demişdir: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Ölkə rəhbəri ötən illər ərzində bu vədinə sadiq qaldı, respublikamızda ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər gördü, Silahlı Qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasını, ən müasir döyüş texnikasının alınmasını gerçəkləşdirdi. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılmasını diqqət mərkəzində saxladı. Məhz bütün bunların nəticəsi idi ki, 44 günlük döyüşdə Silahlı Qüvvələrimiz tarixi uğurlara imza atdı, döyüş meydanında öz üstünlüyünü dəfələrlə sübut etdi.

Azərbaycan torpaqlarının uzunmüddətli işğalına son qoyan İkinci Qarabağ müharibəsindən yeddi aydan bir qədər çox vaxt keçib. Ordumuzun əldə etdiyi parlaq qələbə ilə regionda, eləcə də respublikamızda yeni dönəm, yeni inkişaf mərhələsi başlayıb.

Prezident İlham Əliyev bir neçə gün bundan əvvəl on ölkənin ölkəmizdə yeni təyin olunan qeyri-rezident səfirlərinin etimadnamələrini qəbul edərkən, bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı müharibədən sonra bölgədə tamamilə fərqli bir mənzərə yarandığını diqqətə çatdıraraq, hazırda işğaldan azad olunan ərazilərin yenidən qurulması prosesinə başlanıldığını vurğulayıb. Ölkə rəhbəri deyib: "Siz işğaldan azad olunmuş əraziləri ziyarət edəcəksiniz, şəhərlərimizin, kəndlərimizin, tarixi və dini yerlərimizin tamamilə dağıdıldığını özünüz görəcəksiniz. Vandalizm və barbarlıq - işğal illəri ərzində Ermənistan dövlətinin torpaqlarımızda etdiklərini göstərmək üçün bu iki sözdən istifadə etmək olar...".

Bəli, Qarabağda bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş verib. Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmayıb. Məhz işğal dövründə mənfur düşmən yaşayış məntəqələrimizi indiki acınacaqlı hala salıb.

Qarabağ bölgəsi və ətraf rayonlarda şəhər və kəndlərimizlə yanaşı, mədəni irs nümunələri də dağıdılıb, təhqir edilib. Ümumiyyətlə, indiyədək dünyada müharibə və ya qeyri-müharibə şəraitində dini abidələrin təhqir olunmasına, məqsədli şəkildə dağıdılmasına nadir hallarda rast gəlinib və bu cür erməni barbarlığı artıq bütün dünyada ciddi əks-səda doğurub.

Düşməndən təmizlənən Ağdam rayonuna səfər zamanı jurnalistlərə açıqlamasında BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos deyib: "İşğaldan azad olunmuş Azərbaycan ərazilərindəki vəziyyəti gəlib gözümüzlə gördük. Ermənilər tərəfindən bu yerlərdə olan məscidlərin, teatr və otel binalarının dağıdılması bizi çox kədərləndirdi və hər birimizdə çox ağır təəssüratlar yaratdı... Biz gələcəyi düşünürük və ümid edirik ki, Azərbaycanın gözəl və zəngin tarixi abidələri olan bu ərazilər bərpa olunacaq, bu yerlərə həyat qayıdacaq. Əminəm ki, UNESCO-dakı təcrübəli ekspertlər qrupu burada yerləşən gözəl memarlıq nümunəsi olan tarixi məscidin yenidən bərpası istiqamətində əllərindən gələni əsirgəməyəcək".

Ermənilərin bu cür əməlləri onlar üçün heç bir müqəddəs dəyərin olmadığını göstərir. Buna baxmayaraq, işğalçı çox zaman Azərbaycanı dini dözümsüzlükdə ittiham edir, həyasızcasına bizi din davası aparmaqda suçlayır. Halbuki Azərbaycan heç zaman din davası gerçəkləşdirməyib. Ölkəmizin ərazisində bütün dinlərə məxsus olan abidələr dövlət səviyyəsində qorunub, məscidlərlə yanaşı, sinaqoqlar tikilib, yeni kilsələr inşa edilib. Hətta Bakı şəhərinin mərkəzində erməni kilsəsi dövlət tərəfindən qorunan abidələr siyahısına salınıb. Ermənilər isə, əksinə, İslam mədəniyyətinin incisi olan məbədləri dağıdıb, regionda dini müharibə məsələsini qızışdırmağa və bu münaqişəni xristian-müsəlman qarşıdurması kimi təqdim etməyə cəhd göstəriblər.

Əlbəttə, bütün dağıntılar məqsədli şəkildə edilib. Belə ki, erməni vandalları tərəfindən Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi miraslar viran qoyulmaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədi güdülüb. Bu torpaqlarda bütün milli izlərimiz silinməyə çalışılıb.

Azərbaycanın qazandığı tarixi Zəfərdən sonra bu bölgənin yeni inkişaf dövrü başlayıb. Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizinin bölgəyə gətirəcəyi rahatlığın və zənginliyin miqyasını təsəvvür etmək belə mümkün deyil. Yaranmış yeni reallıqlar Azərbaycan ilə birlikdə, eyni zamanda, Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla Rusiyaya və bütün dünyaya çıxış əldə edəcəklər. Beləliklə, ermənilər özləri özlərini saldıqları blokadadan xilas ola biləcəklər.

Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi indi dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Türkiyə hökumətinin növbəti iclasından sonra ictimaiyyətə müraciətində dövlətimizin başçısının Qarabağın bərpası istiqamətində fəaliyyətini yüksək qiymətləndirib. Qardaş ölkənin rəhbəri Prezident İlham Əliyevin bu işi hazırda sürətlə gerçəkləşdirdiyini xatırladaraq deyib: "Şuşada işğal və savaş dövrünün acılarını, məhv edildiyini, otuz illik işğal zamanı bir mıx çalınmadığını, var olan mirasın yerlə bir olduğunu gördük. Şuşanın ən qısa zamanda tam yeni bir qiyafəyə qovuşacağına inanıram. Bölgənin bir il içində ayağa qalxacağına birlikdə şahid olacağıq. Prezident İlham Əliyevdə bu qətiyyəti və inamı gördüm".

Ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət!" ifadəsini, Prezident İlham Əliyevlə birlikdə işğal altındakı ərazilərə, eləcə də Şuşaya getdiklərini, düşməndən azad olunan torpaqlarda gördükləri acınacaqlı vəziyyəti, Türkiyənin bundan sonra da Azərbaycanın yanında olacağını, bir daha belə sıxıntılar yaşanmasına imkan verilməyəcəyini xatırladan dövlət başçısı daha sonra vurğulayıb: "Bundan sonra da Azərbaycanın yanında olacağımızı bütün dünyaya bir daha nümayiş etdirdik. Qarabağın bölgə üçün nə məna daşıdığı qarşıdakı illərdə bir daha özünü göstərəcək. Bölgənin yeni sabitliyə və rahatlığa qovuşmasından ən çox fayda görənlərdən biri də Ermənistan olacaq. Həmin gün bölgədə xidmət edən əsgərlərimizlə söhbət etdik. Axşam da futbol matçını izlədik".

Prezident Rəcəb Tayyib Ərdoğan "İnşallah, bu proses Qafqazda yeni bir dövrün başlanğıcı olacaq", –ifadəsi ilə mövzuya dair fikirlərini tamamlayıb.

Bu gün Ermənistan minaladığı torpaqların xəritəsini respublikamıza verməməklə işğaldan azad edilən ərazilərimizdə məskunlaşma prosesini əngəlləyir. İtaliyanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Mariya Rizzotti mətbuata müsahibəsində bununla bağlı deyib: "Mən Qarabağda yenidənqurma işlərinin şahidiyəm. Müharibədən sonra azad olunmuş ərazilərə səfər edən ilk avropalı parlamentarilər qrupunun tərkibində olmuşam. Bu torpaqlar başdan-başa minalanıb. Ermənilərin mina xəritələrini verməmələri təəssüf hissi doğurur... Mina xəritələrindən danışanda gözlərim önündə ilk canlanan həmin ərazilərdə oynayan uşaqlar olur. Orada oynayan uşaqların, orada yenidənqurma işlərində iştirak edən günahsız insanların, bərpa prosesinə qatılan xarici şirkətlərin nümayəndələrinin basdırılmış minalardan həlak və ya əlil olması qəbuledilməzdir. Piyada əleyhinə minalardan istifadə beynəlxalq konvensiyalarla qadağandır. Münaqişə baş vermiş digər ölkələrdə uşaqların mina partlayışlarından necə həlak olduqlarını görmüşük və bir daha belə hallara yol vermək olmaz. Hər hansı bir ölkənin mina xəritəsini verməməsi ucbatından həmin dəhşətli səhnələrin təkrarlanmasının qarşısı alınmalıdır".

Mariya Rizzotti daha sonra qeyd edib ki, mina xəritələrini verməməklə Qarabağdakı yenidənqurma işlərinə, eləcə də 30 il əvvəl yurdlarından didərgin salınmış bir milyonadək azərbaycanlı məcburi köçkünün evlərinə qayıtmasına manеə yaratmaq olmaz.

Müharibə başa çatandan sonra Ermənistanın mina xəritələrini verməməsi səbəbindən yeddi ayda 100-dən çox azərbaycanlı həlak olub və ya yaralanıb. Prezident İlham Əliyevin Ermənistanı mina xəritələrini verməyə məcbur etmək üçün apardığı məqsədyönlü və prinsipial siyasət isə artıq öz məntiqi nəticəsini verib. Düşmən ölkə Ağdam rayonu üzrə tank və piyada əleyhinə 97 min minanın xəritələrini Azərbaycana təqdim edib. Bu, 30 il işğal altında saxlanılan Qarabağın azad olunması ilə nəticələnən parlaq zəfərimizdən sonra dövlətimizin başçısının növbəti qələbəsidir. Bu, eyni zamanda, böyük beynəlxalq aktorların Ermənistanın minalanan ərazilərin xəritəsini verməsi barədə Azərbaycan tərəfinin haqlı tələblərinin, dövlət sərhədinin delimitasiyası ilə bağlı təkliflərinin dəstəklənməsinin məntiqi nəticəsidir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***